❐ **Yollar Tərtərin yaxası boyu uzanır. Axşamdan yağmağa başlayan payız yağışı ara vermir. Qarabağı üzük qaşı kimi dövrəyə almış dağlara baxıram. Duman dağları bürüyüb, Tərtərin də suyu bulanıqdır. Görünür, yuxarılara, Murov silsiləsinə daha çox yağır, – deyə düşünürəm. Dumanlı dağlardan, ensiz döngələrdən, sıldırım qayalardan, keçilməz gədiklərdən keçib gələn bu coşqun dağ çayı burada – aranın ağzında elə bil nəfəsini dərir, sakitləşir. Sanki düşmən əlindən qurtulub Vətənə çatdığına görə məcrasına sığmır, doğma torpaqla qol-boyun olur, qəlbini yayın bürküsündən yenicə qurtulmuş çöllərə ayrı bir gözəllik verir.**

# Tərtər: dinamik inkişafın təməlində müasir idarəetmə və insan amili dayanır

Tərtəri Tərtər eləyən bulaqlar, onların axıb gəldiyi yerlər bir-bir gözlərimin önündən keçir. Axı Kəlbəcərə, Dəlidağa, İstisuya ...qalxan yollar bu çayın yaxası boyuncadır.

Tərtər şəhərinə çatanda isə... hava da dəyişdi, yağış da kəsdi, duman da çəkildi. Təbiətin bu qəribə möcüzəsinə sevindim. Özü də təkcə ona görə yox ki, buludlar arasından görünən ılıq payız günəşi inam, istilik, sevinc gətirdi. Həm də ona görə ki, kənd adamı üçün ilin-günün bu vədəsində günəşli keçən hər saat, hər dəqiqə qiymətlidir. Axı aylarla zəhmət çəkib yetişdirdikləri bol məhsulu itkiyə yol vermədən toplamaq lazımdır.

Tərtərin son illərdəki sosial-iqtisadi inkişafının dinamikası statistik rəqəmlərdə daha aydın görünür. Məsələn, təkcə cari ilin ötən ayları ərzində...

***Müsahibim Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov ilin 9 ayında rayonun sosial-iqtisadi inkişafında əldə edilmiş uğurlardan, irəliləyişi və yüksəlişi əks etdirən ən mühüm fakt və rəqəmlərdən məmnunluqla söz açdı:***

– Sevindirici haldır ki, möhtərəm Prezidentimiz İlham Əliyevin Tərtərə göstərdiyi böyük diqqət və qayğı nəticəsində rayonumuzda sosial-iqtisadi sahədə müsbət dinamika bu il də davam etdirilmiş, sosial infrastruktur daha da yaxşılaşmışdır. Bütün uğurların mənbəyi və hədəfi insan amili olduğundan bütün səylər onların yaradıcı enerjisinin bütünlüklə hərəkətə gətirilməsinə və önəmli vəzifələrin gerçəkləşdirilməsinə yönləndirilir.





Buna görə də bütün sahələrdə uğurlarımız nəinki ildən-ilə, eləcə də aydan-aya yüksəlir.

İlin əvvəlindən rayonda ümumi məhsul buraxılışının həcmi 194 milyon 520 min manat olmuşdur. Ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışının həcmi 58,5 faiz artmışdır. Bu dövrdə kənd təsərrüfatı məhsulunun həcmi 7,8 faiz, sənaye istehsalı 11,4 faiz, nəqliyyat xidmətləri 5,4 faiz, pərakəndə ticarət dövriyyəsi 0,2 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər 0,5 faiz, iaşə xidməti 0,4 faiz artmışdır.

İlin ötən dövründə rayonda bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 112 milyon 490,4 min manat olmuşdur. Bunun 97 milyon 568,8 min manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir. Əsas kapitala yönəldilən investisiyaların həcmi 2016-cı ilin müvafiq dövrünə nisbətən 8,9 dəfə, tikinti-quraşdırma işlərinin həcmi 8,3 dəfə artmışdır. 9 ayda 9 milyon 153,2 min manat dəyərində əsas fondlar istifadəyə verilmişdir.

Rayonda 2017-ci ilin 9 ayı ərzində 3933 yeni iş yeri yaradılmışdır ki, bunun 1083-ü daimidir. Bundan başqa, rayon ərazisində 2850 mövsümü iş yeri açılmışdır.

**Müstəqim Məmmədov söhbətin davamında bildirdi** ki, rayon iqtisadiyyatının əsasını aqrar sahə təşkil etdiyindən kənd təsərrüfatı məhsullarının istehsalının artırılması diqqət mərkəzində saxlanılmışdır. Aqrar sektorun inkişaf etdirilməsi sahəsində məqsədyönlü işlər davam etdirilmişdir. Hazırda sahələrdə məhsul yığımı uğurla davam edir. İndiyədək kənd təsərrüfatı məhsulunun ümumi həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,8 faiz artaraq 52 milyon 117,5 min manat təşkil etmişdir. Bunun 32 milyon 457,2 min manatı bitkiçiliyin, 19 milyon 660,3 manatı heyvandarlığın payına düşür.

Bu mövsümdə əkinlərin su ilə təminatını yaxşılaşdırmaq məqsədilə suvarma sistemlərində 282 min kubmetr lildən təmizləmə işi aparılmışdır. Daşqın və selə qarşı 37 min kubmetr torpaq işi görülmüşdür. 6 hidrotexniki qurğu, 12 hidrometrik post, 0,9 kilometr istismar yolu cari təmir edilmişdir. Kollektor və drenlərdə 7 min kubmetr lildən təmizləmə işləri aparılmışdır. 488 subartezian quyularından 479-nun işləkliyi təmin edilmişdir. 170 subartezian quyusunun nasosları əsaslı təmir olunmuş, 37 nasos yenisi ilə əvəz edilmişdir. Bu il 15 yeni subartezian quyusu istismara verilmişdir. 7 yeni quyuda qazma işləri aparılır.

Bu il Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən Tərtər rayonu üzrə heyvandarlığın inkişafına 155 min manat kredit ayrılmışdır. Rayonda təkrar əkin aparan 144 istehsalçıya 13 min manat, 170 fermerə satdıqları xam pambığa görə 230 min manat dövlət yardımı verilmişdir.

"Aqrolizinq" ASC istehsalçılara 1677 ton mineral gübrəni güzəştli şərtlərlə satmışdır.

**Rayon rəhbəri daha sonra qeyd etdi** ki, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər rayonda strateji və ixracyönümlü məhsul olan pambıq və şəkər çuğunduru istehsalının inkişaf etdirilməsi üçün aparılan məqsədyönlü tədbirlərin nəticəsində bu mövsümdə texniki bitkilərin əkini əvvəlki ilə nisbətən 2 dəfə artmışdır. Cari ilin məhsulu üçün rayonda bütün təsərrüfat kateqoriyaları üzrə 26 min 34 hektar sahədə kənd təsərrüfatı bitkiləri əkilmişdir. Onun 9843 hektarı dənli və dənli-paxlalı, 6316 hektarı texniki bitkilər, 1581 hektarı kartof, tərəvəz və bostan məhsulları, 8294 hektarı yem bitkiləri olmuşdur.

Fermerlər bu il 3123 hektarda pambıq, 1541 hektarda şəkər çuğunduru, 1637 hektarda günəbaxan əkmişlər. Ötən ilə nisbətən pambıq əkini 3 dəfə, şəkər çuğunduru 29,8 faiz, günəbaxan 78,4 faiz artmışdır. 843 istehsalçı ilə pambıq əkini ilə bağlı müqavilə bağlanmışdır. Pambıq əkininin genişləndirilməsi hesabına 2800 nəfər əhali mövsümü işlərlə təmin olunmuşdur. Bu da şübhəsiz, rayon əhalisinin rifahının daha da yüksəlməsinə təkan verir.

Hava şəraitinin qeyri-münasib keçməsinə və rayonda su qıtlığının olmasına baxmayaraq, böyük zəhmət hesabına sahələrdə bol məhsul yetişdirilmişdir. Bu günədək rayonda 4400 tondan çox pambıq yığılmışdır. Hazırda məhsul yığımı davam edir. Sevindirici haldır ki, rayonumuz pambığın hər hektarından orta məhsuldarlığına görə respublikada birinci yerdədir.

Baramaçılığın inkişafı da diqqət mərkəzindədir. Bu il 4,6 ton barama əldə olunmuşdur. 2016-cı ilə nisbətən istehsal 4,8 dəfə artmışdır. 46 kümçüyə yetişdirdiyi baramaya görə 22,6 min manat məbləğində dövlət yardımı verilmişdir. Rayonda baramaçılığı inkişaf etdirmək məqsədilə 32 min tut tingi əkilmiş, 100 mininin də əkilməsi




planlaşdırılmışdır. Bu il çuğundur sahələrində də bol məhsul yetişdirilmişdir. İndiyədək 22,5 min ton şəkər xammalı yığılıb qəbul məntəqələrinə təhvil verilmişdir.

Bu ilin məhsulu üçün 9507 hektar sahədə taxıl səpilib becərilmişdir. Bunun 6909 hektarı buğda, 2598 hektarı arpa olmuşdur. Zəmilərdən 34 min 579,6 ton məhsul yığılmışdır. Hər hektardan orta məhsuldarlıq buğda üzrə 38,3 sentnerə, arpa üzrə 31,4 sentnerə çatdırılmış, əvvəlki ilə nisbətən orta məhsuldarlığın artımı təmin edilmişdir.

İndiyədək 1386 ton dən qarğıdalı, 3830 ton dən günəbaxan, 5459 ton kartof, 13 min 987 ton müxtəlif növ tərəvəz, 120 ton bostan bitkiləri, 83,7 ton darı, 45,1 ton lobya, 17,2 ton noxud, 2,5 ton qarabaşaq, 1624 ton meyvə istehsal edilmişdir. Heyvandarlığın inkişafını təmin etmək üçün yonca sahələrindən 94 min 895 ton, sorqo sahələrindən 310 ton quru ot yığılmışdır. Məhsul yığımı davam edir.

Heyvandarlığın inkişaf etdirilməsi və məhsuldarlığın artırılması üçün də işlər diqqət mərkəzində saxlanılmışdır. Hazırda rayonda 27,1 min başdan çox iri mal, 70,6 min başa davar var. İri malın sayı ötən ilin müvafiq dövrünə nisbətən 474 baş çoxalmışdır. İlin 9 ayında 2134 ton diri çəkidə ət, 15,3 min ton süd, 7 milyon 670 min ədəd yumurta, 125 ton yun istehsal olunmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd 15,1 faiz, yumurta 2,3 faiz, yun isə 5,3 faiz artmışdır. Aqrolizinq yolu ilə rayona 265 baş cins mal verilmişdir.

**Rayonda olarkən öyrəndik ki,** tikinti-abadlıq və quruculuq işləri də uğurla davam etdirilir. Tərtər şəhərində ümumi sahəsi 1200 kvadratmetr olan ikimərtəbəli, müasir Tarix-Diyarşünaslıq Muzeyi tikilir. Hazırda binanın daxilində dizayn və tərtibat işləri aparılır. Tərtər çayı sahilində 5 hektar ərazidə yeni park salınması işləri davam etdirilir.

Əhalinin məşğulluğunun təmin edilməsi və abadlıq işlərinin uğurla davam etdirilməsi məqsədilə rayon mərkəzində 24 çoxmənzilli yaşayış binasının təmiri ilə bağlı dövlət başçısının tapşırığına əsasən Tərtər Rayon İcra Hakimiyyətinə 3 milyon manat vəsait ayrılmışdır. Bu işləri görmək üçün aylıq əmək haqqı 200 manat olmaqla, 100 nəfər rayon sakini 12 ay müddətinə işlə təmin olunmuşdur. İlin əvvəlində çoxmənzilli yaşayış binalarının təmirinə başlanmışdır. Şəhərin Ə. Paşayev və N. Nərimanov küçələrindəki yaşayış binalarının fasad, giriş və blok hissələrinin köhnə suvağı qaşınıb yenidən suvanmış, dam örtükləri sökülüb yenidən vurulmuşdur, hazırda rəngsaz işləri aparılır. Bu yaşayış binalarının ətrafında zəbt olunmuş sahələr sökülərək təmizlənmişdir, yaşıllıq zolaqlarının salınması üçün hazırlıq işləri aparılır.

Tərtər ərazisində 1170 məcburi köçkün ailəsi üçün yeni qəsəbənin tikintisi başa çatmaq üzrədir. Bundan başqa, Şıxarx qəsəbəsində, Həsənqaya və Çaylı kəndlərində məskunlaşmış



78 məcburi köçkün ailəsinə yaşadıqları həyətdə fərdi yaşayış evləri tikilib istifadəyə verilmişdir. Şıxarx qəsəbəsi ərazisində "Marağa-150" tarixi abidə kompleksinin ətrafında abadlıq işləri davam etdirilir. Tərtər-Şıxarx avtomobil yolunun sağ və sol tərəflərində yaşıllıq zolaqları salınır.

Hazırda 24 min nəfər əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirən Tərtər-Seydimli-Qaradağlı-Sarov avtomobil yolunun tikintisi davam etdirilir. Həmin yolun 18-ci kilometrində, İncəçay üzərində yerləşən qəzalı körpü yenidən tikilib istifadəyə verilmişdir. İlin əvvəlindən respublika əhəmiyyətli avtomobil yollarında 765,1 min manatlıq, yerli yollarda 759 min manatlıq, Tərtər şəhərinin küçələrində isə 8,1 kilometrlikdə cari təmir işləri görülmüşdür.

Seydimli kənd tam orta məktəbində əsaslı təmir işləri başa çatmış, təhsil ocağı yeni dərs ilində istifadəyə verilmişdir. 6 saylı şəhər tam orta və Qazyan kənd ümumi orta məktəblərində əsaslı təmir işləri davam etdirilir. Poladlı əsas və Bayandur ibtidai məktəblərində Təhsil Nazirliyi tərəfindən yeni modul tipli məktəb binaları tikilir.

Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin rayonda apardığı əməliyyatlar nəticəsində 1241333 kvadratmetr ərazidə 132 mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilmişdir. Rayonda ekoloji tarazlığın qorunması məqsədilə Bərdə, Ağdam və Gəncə istiqamətində yol kənarlarına və rayonun yaşayış məntəqələrində 26 mindən çox müxtəlif növ ağac və 6 min gül kolu əkilmişdir.

Bu vaxtadək 120 Qarabağ əlilinə minik avtomobili, 100 əlilə və şəhid ailəsinə mənzil, 30 nəfərə fərdi ev tikilib verilmişdir, hazırda isə 5 nəfərə fərdi ev tikilir.

Göründüyü kimi, son illərdə və aylarda ölkəmizdə olduğu kimi, Tərtər rayonunda da sosial-iqtisadi və mədəni sahədə dinamik inkişaf təmin edilmiş, intizam və tələbkarlıq artırılmış, insan amili ön plana çəkilmişdir. Əsas cəhət odur ki, rayon icra hakimiyyəti, onun yerli strukturları təşkilat-idarəetmə məsələlərini, iş üslubu və metodlarını daxilən təkmilləşdirir, daha çox elmi münasibət əsas götürülür. Bu isə aydın məsələdir ki, bütün sahələrdə yüksək uğurların əldə edilməsi ilə yekunlaşır, yenilik və təşəbbüskarlıq əsas meyara çevrilir.

Bəli, Tərtər işıqlı yol üstədir. Bu yol onu hərtərəfli inkişafın yaratdığı daha yüksək rifaha, firavanlığa aparır.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***